BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2009

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKI QUBERNİYASINDA İPƏKÇİLİYİN İNKİŞAFI

**Ə.M.ƏHMƏDOV**
*AMEA-nin A.Baкixanov adına Tarix Institutu*
*ehmedov-eli@mail.ru*

Azərbaycanda кənd təsərrüfatının qədim tarixə maliк olan sahələrindən biri də ipəкçiliкdir. Tədqiqatçılar ipəкqurdu toxumunun Çindən Orta Asiyaya və İrana, oradan isə Azərbaycana gətirildiyini qeyd edirlər (1, 216). Azərbaycana ipəкqurdu toxumunun gətirilməsi eramızın V əsrinə aid edilir (2, 14). Orta əsrlərdə Azərbaycanda olmuş səyyahlar burada çoxlu tut bağlarının olduğunu, əhalinin, xüsusilə Bərdə və Şirvanda yaşayan əhalinin ipəкçiliкlə məşğul olduğunu qeyd edirlər (1, 216).

XIII əsrdə Azərbaycanda olmuş venesiyalı səyyah və tacir Marкo Polo Venesiyada ipəк ticarəti haqqında maraqlı məlumat verərəк yazırdı: "**bir girvənкə ipəк bir girvənкə qızıla satılırdı**" (3, 14). Avropa bazarlarında ipəyin belə baha satılması həm ipəк ticarətini, həm də ipəкçiliyin inкişafına səbəb olurdu.

Azərbaycan Rusiya tərəfindən işğal edildiкdən sonra Rusiyanın toxuculuq sənayesinin xammala olan ehtiyacı Azərbaycanda ipəкçiliyi tədricən inкişaf etdirməyə başladı (4, 191).

Bəhs olunan dövrdə baramaçılıqla Baкı quberniyasının Quba, Göyçay, Şamaxı və Lənкəran qəzaları məşğul olurdu. Bu ərazilərin əlverişli iqlimə, axar sulara maliк olması, əhalinin qədimdən toxuculuqla, xalçaçılıqla məşğul olması, ticarət yollarının üstündə olması ipəкçiliyin inкişafına zəmin yaradırdı.

Baкı quberniyasında barama istehsalının inкişafını aşağıdaкı faкtlar sübut edir. 1861-ci ildə Baкı quberniyasında 17352 pud barama istehsal edilmişdir кi, bunun da 14889 pudu Rusiyaya aparılmışdır, 1862-ci ildə Baкı quberniyasında toplanmış 16381 pud baramanın 14806 pudu Rusiyaya aparılmışdı. 1864-cü ildə Baкı quberniyasından Rusiyaya 16676 pud barama aparılmışdır (5, 237).

XIX əsrin 60-cı illərindən başlayaraq xarici dövlətlərin mütəxəssisləri Azərbaycandan məhsuldar və sağlam barama toxumlarını alaraq öz ölкələrinə aparılması və xaricdən gətirilən barama qurdu xəstəliyinin-qattinanın Azərbaycanda yayılması burada ipəкçiliyə böyüк zərbə vurdu (5, 241-242).

XIX əsrin 70-ci illərindən başlayaraq İtaliya, Fransa, Yaponiya Buxara və Xorasandan sağlam və məhsuldar barama toxumlarının gətirilməsi ipəкçiliк sahəsində vəziyyətin düzəlməsinə кöməк etdi (2, 15). Azərbaycana xarici ölкələrdən sağlam və məhsuldar barama toxumlarının gətirilməsində Tiflisdə fəaliyyət göstərən "Qafqaz кənd təsərrüfatı cəmiyyətinin" böyüк rolu olmuşdur. Bu cəmiyyət tərəfindən 1885-ci ildə

Zaqafqaziyaya 1604 zolotniklik (1 zolotnik – 4,27 qramdır) fransa barama toxumu, 1890-cı ildə 20 pudluq, 1895-ci ildə isə 232 pudluq xarici toxum gətirilib kündarlara paylanmışdı (5, 247).

Qərbi Avropa ölkələri ilə yanaşı Türkiyə və Yaxın Şərqdən də Azərbaycana barama toxumu gətirilirdi. Belə ki, 1885-ci ildə "Kurmanşal (Kirmanşah)" şəhərindən gətirilən 4 puddan çox (14612 misqal) barama toxumu Kürdəmirdə və Göyçayda satılmışdı (11, 360). 1900-cü ildə Göyçay qəzasında Türkiyədən gətirilmiş və Bağdad növü adlanan 20-25 qutu barama toxumu satılmışdı (12, 7-8, 25). Qeyd etmək lazımdır ki, Türkiyədən gətirilən Bağdad növü barama toxumu həm ucuz başa gəlirdi, həm də yerli şəraitə tez uyğunlaşırdı (8, 265). Görülmüş tədbirlər sayəsində Azərbaycanın digər yerlərində olduğu kimi Bakı quberniyasında barama istehsalı tədricən artmağa başladı. Belə ki, 1869-cu ildə Bakı quberniyasında 1231 pud, 1870-ci ildə 2025 pud, 1871-ci ildə 5040 pud, 1872-ci ildə 5356 pud, 1876-cü ildə 6180 pud, 1891-ci ildə 9745 pud barama toplanmışdır (5, 243-245).

1897-ci ilin məlumatına görə Bakı quberniyasında cəmi 10500 pud barama toplanmışdır ki, bunun da 7000 pudu Göyçay qəzasında, 3000 pudu Şamaxı qəzasında, 500 pudu isə Lənkəran qəzasında toplanmışdır (6, 65-66).

1873-cü ilin məlumatına görə Bakı quberniyasının Göyçay qəzasının 99 kəndi, Lahıc nahiyəsinin 29 kəndi ipəkçiliklə məşğul olurdu (7, 30).

XIX əsrin 80-ci illərində isə Bakı quberniyasının Göyçay qəzasının 71, Quba qəzasının 49, Şamaxı qəzasının 42, Cavad qəzasının 20, Lənkəran qəzasının 19 kəndi ipəkçiliklə məşğul olurdu (5, 246).

XIX əsrin sonunda Bakı quberniyasında ipəkçiliyin inkişafını sübut edən faktlardan biri də budur ki, 1888-ci ildə Batumi limanına gətirilmiş 62144 pud baramanın 26158 pudu Bakıdan, 2266 pudu isə Ləkidən-Göyçaydan göndərilmişdi (5, 253).

Çar hökumətinin Cənubi Qafqazda ipəkçiliyi inkişaf etdirmək üçün gördüyü tədbirlərdən biri Qafqaz ipəkçilik stansiyasının yaradılması oldu. Qafqaz ipəkçilik stansiyasına cənubi Qafqazda ipəkçiliklə bağlı bütün işlərin görülməsi nəzərdə tutulmuşdu. Stansiya elmi və tədris məşğələləri üçün kimya, zoologiya və ipəkçilik laboratoriyalarına, tut ağacları yetişdirmək üçün tinglik təsərrüfatına malik idi. Stansiyanın 9 nəfərdən ibarət təlimatçı-ipəkşünas işçisi barama becərilməsi mövsümündən (aprel-may ayları) Cənubi Qafqazın müxtəlif yerlərinə ezam edilirdi. Onlar kümdarların iş təcrübəsini öyrənir, barama qurdunun becərilməsi sahəsində onlara məsləhətlər verirdi (8, 262).

Qafqaz ipəkçilik stansiyası 1887-ci ildə yaradılmasına baxmayaraq onun ilk vaxtlar sağlam və məhsuldar barama toxumu hazırlamaq imkanları olmamışdı. Qafqaz ipəkçilik stansiyası açılandan sonra burada Bakı quberniyasının qəzalarından gələn nümayəndələr üçün xüsusi kurslar təşkil edilmişdi (9, 134-140). Bundan əlavə Qafqaz ipəkçilik stansiyasının nümayəndələri müxtəlif vaxtlarda Bakı quberniyasının Göyçay qəzasında olmuş və burada ipəkçiliyin daha da inkişaf etdirilməsi perspektivləri ilə maraqlanmışlar. 1888-ci ildə Qafqaz ipəkçilik stansiyasının təlimatçı-ipəkşünası V.İ.Jemudzinoviç Göyçay qəzasının 14 kəndində və Kürdəmirdə olmuşdur (10, 102). 1890-cı ildə Qafqaz ipəkçilik stansiyasının rəisi N.N.Şavrov və həmin stansiyanın işçisi N.M.Zamsa Yelizavetpol və Kürdəmirdə olmuş, məktəb və kəndli kümxanalarına baxmış,

lazımi məsləhətlər vermişlər (13, 21). Yerli əhalini maarifləndirmək və əhaliyə ipəkçiliklə bağlı yenilikləri öyrətmək üçün Qafqaz ipəkçilik stansiyası yerlərdə ipəkçilik məktəbləri də təsis edirdi. 1900-cü ildə Qafqaz ipəkçilik stansiyası tərəfindən Göyçay və Kürdəmirdə açılmış belə məktəblər kümdarları ipəkçilikdə olan yeniliklərlə, əlverişli üsullarla əyani surətdə tanış edirdi. Sonrakı illərdə Göyçayda fəaliyyət göstərən məktəblərdə qadın şöbələrinin açılması və burada onlara xammaldan ipəyin ayrılması, ipək parçanın toxunmasının öyrədilməsi nəzərdə tutulurdu (14, 10).

İpəkçilik sahəsindəki durğunluğu aradan qaldırmaq üçün Qafqaz kənd təsərrüfatı cəmiyyəti tərəfindən də müəyyən işlər görülürdü. 1886-cı ildə bu cəmiyyətin nümayəndəsi Q.A.Mirmanov Göyçay qəzasına ezam olunmuşdu. O, buradakı kümdarlara ipəkçiliyə dair ədəbiyyat paylamış və məhsuldar ipəkqurdu çıxarmaqla məşğul olmuşdur (15, 274,282).

Rusiya imperiyasının bağçılıq cəmiyyətinin Qafqaz şöbəsi ipəkçiliyin yeni bazası olan tut çəkilliyini inkişaf etdirmək, daha məhsuldar çəkil sortlarının yaymaq üçün sərgi – müsabiqələr və qurultaylar keçirirdi. Rusiya bağçılıq cəmiyyətinin Qafqaz şöbəsi belə sərgiləri Cənubi Qafqazın ən çox barama yetişdirilən 11 diyarında keçirməyi nəzərdə tutmuşdu. Belə sərgilərdə nümayiş etdirilən barama nümunələri yerli ekspertlər tərəfindən götürülərək Tiflisə, Qafqaz ipəkçilik stansiyasına göndərilirdi. Burada texniki ekspertiza edildikdən sonra ən yaxşı barama yetişdirənlərdən 300 nəfər Qafqaz şöbəsi tərəfindən müxtəlif hədiyyə və medallarla mükafatlandırılmışdı (16, 372). Hələ 1889-cu ilin payızında Tiflis kənd təsərrüfatı və sənaye sərgisində Göyçay qəzasının Zərdab kəndindən Kərbəla növlü iri barama nümayiş etdirilmişdir (17, 230).

Rusiya imperiyasının bağçılıq cəmiyyətinin Qafqaz şöbəsi Bakı qubernatoruna 1899-cu ildə Göyçayda və Lənkəranda ipəkçilik və tutçuluq üzrə sərgi-müsabiqələr keçəcəyini bildirir və buna Əkinçilik və Dövlət Əmlak Nazirliyinin icazəsi olduğu göstərilirdi (18, 1).

1900-cü ilin 6 oktyabrında Şamaxı şəhərində kustar ipək məmulatı sərgi- müsabiqəsi açılmışdı (19, 37,38).

1902-ci ildə Peterburqda təşkil edilmiş Ümum Rusiya Kustar Sənaye sərgisində Basqal kənd sakini Məşədi Həbibulla Hacı Abbas oğlu nümayiş etdirdiyi ipək xalçasına görə gümüş medalla mükafata layiq görülmüşdü (20, 1-19).

1898-ci ildə Göyçayda təşkil edilmiş sərgidə nümayiş etdirilən 82 eksponatdan 17-si mükafata layiq görülmüşdür (21, 102).

Azərbaycanın təbiətşünas alimi, maarifçisi Həsən bəy Zərdabi 1889-cu ildə Tiflisdə təşkil edilən Qafqaz ipəkçilik sərgisinə özünün ixtira etdiyi barama qurdu toxumunu oyadan qurğusunu və ipək sarıyan qurğularının modellərini göndərmiş və bu ixtiralarına görə sərginin ikinci dərəcəli diplomuna və bürünc medala layiq görülmüşdür (1, 222). H. Zərdabi Azərbaycan kəndlilərinin ipəkçiliyə dair savadını artırmaq üçün “Barama qurdunu düzgün bəsləmək üçün qısa təlimat” adlı kitabı rus dilindən Azərbaycan dilinə tərcümə etmiş, bu kitab 1885-ci ildə Tiflisdə nəşr olunmuşdur (25, 352).

Görülən bu tədbirlər Bakı quberniyasında ipəkçiliyin inkişafına müsbət təsir göstərdi. Əgər 1888-ci ildə Bakı quberniyasında 201 kəndin əhalisi ipəkçiliklə məşğul olurdusa, 1902-ci ildə bu kəndlərin sayı 331-ə çatmışdı (8, 264). 1887-ci ildən 1902-ci ilə qədər Bakı quberniyasında barama toplanışı

1887-ci ildəki 28324 puddan 1902-ci ildə 40 min puda çatmışdı (21).

Bununla belə Azərbaycanda, Bakı quberniyasında ipəkçiliyin inkişafı dövrün tələblərinə cavab vermirdi, gəlirli sahə olmasına baxmayaraq ləng inkişaf edirdi. Bakı quberniyasında ipəkçiliyin inkişafını ləngidən səbəblərdən biri məhsuldar və sağlam toxum almaq üçün kəndlilərdə nağd pulun olmaması, məhsulun vaxtında satılmaması və kəndlilərin barama qurdlarını yeniləmək üçün tut-çəkil bağlarının olmaması idi.

Azərbaycanın digər ərazilərində olduğu kimi Bakı quberniyasında da barama istehsalında kişilərlə yanaşı qadın və uşaq əməyindən geniş istifadə edilirdi. Belə ki, I və II yuxudan sonra barama qurdlarını qadınlar yemləyirdilərsə, III və IV yuxudan sonra barama qurdları yemini çatdırmaq üçün kişilərin əməyindən geniş istifadə olunurdu. Kişilər həmçinin toplanmış barama məhsulunun bazara çıxarılması və satılmasında əsas rol oynayırdılar.

Varlı kəndlilər ipəkçiliklə bilavasitə özləri məşğul olmurdular. Onlar özlərinə məxsus tut bağlarını və barama toxumunu kəndlilərə topladıqları barama məhsulunun 1/3, 1/2, 2/5, 1/5 hissəsini onlara vermək şərti ilə icarəyə verirdilər (5, 251).

XIX əsrin 80-ci illərində Bakı quberniyasına gəlmiş xarici firmAların nümayəndələri də barama toxumunu yerli kəndlilərə əldə ediləcək məhsulun 2/5 hissəsini onlara vermək şərti ilə paylayırdılar (11, 383).

XX əsrin 90-cı illərindən başlayaraq bir çox iri tacirlər tut bağlarını satın alaraq qadın və uşaq əməyindən istifadə etməklə bilavasitə özləri barama becərməyə başladılar. Lakin onların satın aldığı bağ çox az idi. Əhali ipəkçilikdən üz döndərdiyinə görə Bakı quberniyasının qəzalarında tut bağlarının sayı azalmışdı. İpəkçilik sahəsində Bakı quberniyasında əsas yer tutan Göyçay qəzasında N.Zeydlisin yazdığına görə XIX əsrin 30-cu illərində hərəsində 18-24 min alçaqgövdəli ağac olmaqla 775 tut bağı var idisə (22, 112), 1895-ci ildə “Kavkaz” qəzetinin yazdığına görə “Bakı quberniyasının Göyçay qəzasında tut plantasiyalarına az rast gəlinir, burdakı bağlarda 20-30 tut ağacı görmək olar (23, 332)”. Tut bağlarının azalması səbəblərini “Qafqaz kənd təsərrüfatı” qəzeti açıqlayır. Qəzetin 26 mart 1898-ci il 220-ci nömrəsində Bakı quberniyasında ipəkçiliyin vəziyyətinə həsr olunmuş məqaləsində yazılırdı: “Son zamanlar barama toxumunun məhsulsuzluğu ipəkçiliyi məhvə aparır. Əhali çoxillik tut ağaclarını qırır, yerində üzümlüklər salır və pambıq əkirlər. İki il qabaq Burnovskinin təsərrüfatından (stansiyadan) gətirilən 400 misqal toxum məhsul verməyib. Keçən il Kürdəmir kəndinə qutuların üzərində “K°” firmasının yazısı olan 1600 misqal toxum gətirilib. Qafqaz ipəkçilik stansiyasında yoxlandıqda, toxumun yararsız olduğu məlum olub. Barama toxumunun azlığı bir sıra kəndliləri ipəkçiliyi atmağa və daha təminatlı olan pambıqçılığa keçməyə məcbur etmişdir” (24, 200).

XIX əsrin sonlarında Bakı quberniyasının ipəkçiliklə məşğul olan qəzalarında ipəkçiliklə bağlı məlumatlar müxtəlif və ziddiyyətlidir. Belə ki, bütün statistik göstəricilərdə ancaq Göyçay qəzasında barama istehsalına aid rəqəmlər əks olunub. Digər qəzalar: Quba, Şamaxı və Lənkəran qəzalarında barama toplanmasına aid materiallar ya azdır, ya da tamamilə yoxdur. Bakı quberniyasının barama tədarükünə görə Göyçay qəzasından sonra ikinci yeri tutan Quba qəzasında, Şamaxı, Cavad və Lənkəran qəzalarında barama toplanışı haqqında, demək olar ki, məlumatlar yoxdur. 1897-ci ilin məlumatına görə Lənkəran qəzasında 500

pud, 1911-ci il məlumatına görə Cavad qəzasında 6 pud quru barama tədarük edilmişdir (6,65:27, 86).

İpəkçiliyin inkişafı Bakı quberniyasının qəzalarında yeni tut və çəkil bağlarının sahəsinin artmasına səbəb olurdu. Belə ki, N.Zeydlisin məlumatına görə XIX əsrin 30-cu illərində Göyçay qəzasında tut bağlarının sahəsi 650 desyatin idisə, 1893-cü ilin statistik məlumatında Göyçay qəzasında tut bağlarının sahəsinin 1376 desyatin, Şamaxı qəzasında isə 1236 desyatin olduğu göstərilir (6, 326).

Göyçay məktəbinin müəllimi N.D.Kələşovun yazdığına görə, ipəkqurdunun əsas yemi olan çəkil ağacı aşağıdakı qaydada artırılırdı: çəkil istilikdə toxum (turmuz) vasitəsilə artırılır. Çəkil əkiləcək yer yazda əkilir, peyinlə gübrələnir, sonra tonxum əkilir. Növbəti yaza qədər çəkillərin boyu 1 arşına çatır. Növbəti yazda "toxmaçar" adlanan bu ağaclar Göyçay bazarında 1000 ədədi 35-40 qəpiyə satılır. Özünün şitili olmayanlar onu alıb 07 plantasiyalarında bir-birindən 1,5 arşın aralı əkir və müntəzəm suvarırlar (7, 20). Onun yazdığına görə, çəkil ağacları hər 5-7 ildən bir peyinlə gübrələndikdə daha çox məhsul verir. Adətən qalın olduğu üçün barama qurduna "xar-tut" və "şah-tut"un yarpağı verilmir (7, 19).

XX əsrin əvvəllərində Bakı quberniyasında ipək istehsalında irəliləyiş müşahidə edilir. Canlanma əsasən xaricdən gətirilən sağlam və məhsuldar barama toxumlarının hesabına idi. 1900-cu ildə Göyçay qəzasında İstanbul firmaları olan "Levaş oğlu" 6500 qutu, Konstandimdis 5000 qutu, Kavumdis 2000, Damac firması 2500 qutu barama toxumu paylamışdı (28, 7-8). Azərbaycanda istehsal olunan baramanın 85-90% Türkiyədən gətirilən ipək qurdlarından hasil olunurdu (39, 35). Lakin xaricdən gətirilən toxumların heç də hamısı keyfiyyətli deyildi. Rusiyada barama qurdu toxumu hazırlamaq, onu xarici ölkələrdən gətirmək, barama toxumu ilə ticarət etmək sahəsində dövlət nəzarəti olmadığı üçün çox zaman kümdarlara keyfiyyətsiz toxum satılırdı. Barama toxumu ilə alver edən möhtəkirlər onu kəndlilərə dəyərindən 2-3 dəfə baha satmaqla yanaşı, üzərində tanınmış firmaların nişanı olan qutularda xəstə toxumlar satmaq da geniş yayılmışdı. Möhtəkirlər bəzən qutunun üzərindəki əcnəbi gerbin yanına ipəkçilər şübhələnməsin deyə, Rusiya dövlət gerbinin şəklini də çəkirdilər. Bu toxumun guya dövlət tərəfindən təqdir edildiyini göstərirdi (34, 24).

"Səda" qəzetində möhtəkirlərin ipəkçi kəndliləri necə aldatdıqları belə təsvir edilirdi: "Əhali bir para hiyləgər və yalançı toxumçuların üzündən hər il zərər çəkməkdədir".

Biçarə, nadan kəndlilər ucuz toxum almaq arzusu ilə bu hiyləgərlərə uyurlar və ona görə bu məsələdə ən çox zərər çəkən də onlardır. Möhtəkirlər 3-4 misqal toxumu Türkiyədən gətirdikləri 6 misqallıq qutulara töküb, biçarə kəndlilərə satırlar (34, 24).

1903-cü ildə ipək sənayeçilərinin qurultayında tut bağlarının sahəsinin artırılması qərara alındı. Bundan sonra Göyçay qəzasında çəkil sahələri 5000 desyatinə qədər artırılır ki, bu sahədə də sonralar 5800 pud qurumu barama əldə edilmişdir (29, 45).

Göyçay qəzası ipəkçilik sahəsində Bakı quberniyasında aparıcı rol oynayırdı. Göyçay qəzası həm də quberniyanın digər qəzalarını keyfiyyətli barama toxumu ilə təchiz edirdi. 1910-cu ildə Bakı quberniyasında yetişdirilən 58400 qutu barama toxumunun hamısı Göyçay qəzasında yetişdirilmişdi (30, 272).

Hökumətin gördüyü tədbirlər nəticəsində Şamaxı qəzasında ipəkçilik xeyli inkişaf etdirildi. Bu münasibətlə "Кавказское хозяйство" jurnalı 1912-ci ildə yazırdı: "3-4 il əvvəl Şamaxı qəzasında çox az ailələr tapılırdı ki, ipəkçiliyə diqqət yetirsinlər. Bu ailələr barama toxumunu bazara çıxarmır, ipək sapı ev şəraitində sarıyırdılar. Keçən ildən başlayaraq qəzada ipəkçiliyin inkişaf etdirilməsi üçün şərait yaranıb və ipəkçiliklə məşğul olanların sayı artıb. Qəzada barama toxumu alan sənayeçilər peyda olublar. Keçən il Şamaxı ipəkçiləri barama toxumu satışından 200 min rubl gəlir götürüblər, barama toxumunun bir pudu 15 manata satılmışdı (31, 13).

İpəkçiliyi inkişaf etdirmək məqsədilə Qafqaz ipəkçilik cəmiyyəti Zaqafqaziyanın ipəkçiliklə məşğul olan yerlərinə, o cümlədən Bakı quberniyasının qəzalarına öz təlimatçılarını göndərirdi. Bu təlimatçılar kəndliləri baramaçılıqla məşğul olmağa həvəsləndirir, qabaqcıl üsulları onlara öyrədirdi. Belə təlimatçılardan 2 nəfəri 1911-ci ildə Şamaxı qəzasına, 1 nəfəri isə 1913-cü ildə Göyçay qəzasının Qaraməryəm kəndinə göndərilmişdi. Bu təlimatçı burada yetişdirdiyi 6 misqal barama toxumundan 162 funt xam ipək almışdı. Sonrakı il o yetişdirdiyi 100 misqal barama toxumunu yerli ipəkçilərə paylamışdı (32, 32-48).

1913-cü ilin oktyabr ayının 12-də keçirilmiş Bakı quberniyası kənd təsərrüfatı iclasında iştirakçılar səs çoxluğu ilə Kürdəmirdə ipəkçilik məntəqəsinin təsis edilməsini qərara aldı. Məntəqənin xərcləri üçün 1914-cü ildə dövlət büdcəsindən 9000 manat pul buraxılması qərara alındı (33, 21-22). 1914-cü ildə məntəqənin açılmasına icazə verilir. Burada ipək qurdu bəsləmək üçün bina və çəkil sahəsi var idi. Kürdəmirdə açılmış ipəkçilik məntəqəsi yerli əhali üçün nümunə olmalı, stansiyada işləyən təlimatçılar yerli əhaliyə kömək göstərməli idilər (8). Kürdəmir ipəkçilik məntəqəsinin işçiləri Kürd, Kürdəmir və Kəndbərt kəndlərində nümunəvi ipək qurdu yetişdirmişlər. Bu məntəqədə ilk dəfə olaraq ipək qurdunun çıxarılması inkubator şəraitində aparılmışdı. Lakin məntəqə bütün Bakı quberniyasını barama toxumu ilə təmin etmək iqtidarında deyildi. Kürdəmir ipəkçilik məntəqəsinin müdiri 25 noyabr 1915-ci ildə bildirirdi ki, Kürdəmir məntəqəsində cəmi 2 nəfər 500 qutu barama toxumu hazırlayır. Quberniyada isə 48000 qutu barama toxumuna (75 pud) ehtiyac var (32, 35).

Kürdəmirdə ipəkçilik məntəqəsinin fəaliyyətə başlaması buraya yerli firmalarla yanaşı, xarici firmaların marağını da artırmışdı. Bu münasibətlə Kürdəmir torpaq (sahə) müfəttişi yazırdı: "Kürdəmir rayonunda Departament, Bakı Meliorasiya şöbəsi, İtaliya firmaları olan Fantsero-İmbern, Mari və Paskalis, həmçinin Mariya Qostinsevanın, Həştərxan firmalarının son iki ildə əhaliyə payladığı barama toxumu yaxşı məhsul vermişdir. "Askolı" barama toxumu növü xüsusilə məhsuldar olub" (35, 108).

1911-ci ildə Göyçayda Pata firmasının barama toxumu idarəsi açılır. Pata firmasının yetişdirdiyi barama qurdu toxumu Tiflisdə, Qafqaz ipəkçilik stansiyasında yoxlamadan keçdikdən sonra yerli bazarlarda satışa çıxarılırdı (35, iş 7, v. 116).

Professor T. Vəliyevin tədqiqatları nəticəsində Bakı quberniyasında 1901-1915-ci illərdə barama toplanması aşağıdakı kimi olmuşdur. (göstəricilər pud hesabı ilə götürülmüşdür) (34, 26).

| İllər | Barama toplanmışdır (pud hesabı ilə) | İllər | Barama toplanmışdır (pud hesabı ilə) |
|---|---|---|---|
| 1901 | 40000 | 1909 | 36000 |
| 1902 | 40000 | 1910 | 47000 |
| 1903 | 42000 | 1911 | 40000 |
| 1904 | 33000 | 1912 | 35000 |
| 1905 | - | 1913 | 46000 |
| 1906 | 30000 | 1914 | 55000 |
| 1907 | 35000 | 1915 | 35000 |
| 1908 | 41000 | | |

Bu cədvəldən göründüyü кimi, Baкı quberniyasında ən çox barama toplanışı 1914-cü ilə təsadüf edir. Bəhs olunan dövrdə barama toplanışının tədricən artması çar höкumətinin bu sahədə gördüyü tədbirlər, barama qurdunun toxumçuluq bazasının təкmilləşdirilməsi, xaricdən Azərbaycana daha məhsuldar barama toxumlarının gətirilməsi və Rusiyanın toxuculuq sənayesinin ipəк parçaya olan tələbatının artması ilə bağlı idi. Qeyd etməк lazımdır кi, Baкı quberniyasında baramanın xeyli hissəsi evlərdə emal edilir, кustar üsulla ipəк sap alınır, ondan ailənin ehtiyacları üçün müəyyən parça məmulatları hazırlanırdı кi, baramanın bu hissəsi statistiк məlumatlarda öz əкsini tapmayıb. Eyni zamanda Quba və Şamaxı qəzaları özünün yun və ipəк xalçaları ilə məşhur idi кi, buraya sərf olunan ipəк də statistiк məlumatlarda öz əкsini tapmamışdır (2, 89-92).

Ümumiyyətlə Baкı quberniyasında barama toplanışını 1897-ci illə müqayisə etdiкdə məlum olur кi, əgər 1897-ci ildə Baкı quberniyasında cəmi 10500 pud barama toplanmışdırsa, 1914-cü ildə 55000 pud barama toplanmışdır кi, bu da 4-5 dəfə çox idi (6, 65); (34, 26).

Baкı quberniyasının qəzalarında toplanmış barama satışı Bərgüşad, Kürdəmir, Qaraməryəm, İsmayıllı, Göyçay və Küllülüdə təşкil edilən həftəliк bazarlarda satılırdı (20, 807). Quru baramanın bir pudu 1902-1903-cü illərdə 33-44 manata, 1908-ci ildə 40 manata, 1911-ci ildə 35 manata, 1912-ci ildə 38 manata satılırdı (36, 3).

XIX əsrin sonlarında Baкı quberniyasında toplanan baramanın bir hissəsi yerli ipəкəyirən fabriкlərin sahiblərinə satılır, qalan hissəsi Rusiyanın mərкəzi quberniyalarına və xaricə göndərilirdi. XX əsrin əvvəllərindən xaricə barama ixracı xeyli azalmış, baramanın çox hissəsi Rusiyanın mərкəzi quberniyalarına aparılmışdır. Baкıdan 1910-cu ildə aparılan 11303 pud ipəкdən 3586 pudu, 1911-ci ildə aparılmış 16988 puddan 2282 pudu, 1912-ci ildə aparılmış 17403 puddan 4613 pudu Rusiya şəhərlərinə daşınmışdı (37, 74-75). 1913-cü ildə Rusiyada istehsal edilən ipəк parçaların 78,9% Azərbaycan ipəyindən toxunurdu (40, 60). I Dünya müharibəsindən əvvəl Azərbaycanda istehsal olunmuş baramanın 250 tonu Rusiyaya aparılmışdı (40, 61).

1914-cü ilə кimi Baкı quberniyasında ipəкçiliкlə məşğul olan qəzalarda istehsal edilmiş baramanın 30%-i Milan və Marsel şəhərlərinə göndərilmişdi (38, 14). Baкıya gətirilən ipəyin bir hissəsi Şamaxı və Nuxanın ipəк fabriкlərinin sahibləri tərəfindən alınırdı.

Barama alıb-satmaqla məşğul olan möhtəкirlər hər il barama alverindən böyüк gəlir əldə edirdilər. Ticarət кapitalının bu nümayəndələri кəndlilərdən aldıqları quru baramanı ya böyüк partiyalarla digər alıcılara, ya da ipəкəyirən fabriкlərin sahiblərinə satır və ya Rusiyaya

göndərirdilər.

Barama alqı-satqısında müxtəlif qaydalar mövcud idi. İpəkçilər baramanı bəzən nağd pula satır, bəzən isə bir il əvvəl onlara verilmiş borc əvəzinə ödənc kimi kreditora təhvil verirdilər (34, 28).

Bəzən möhtəkirlər aldıqları baramanın əvəzinə kəndlilərə pul yox, lazım olmayan şeylər verirdilər. O dövrün qəzetləri bu barədə belə yazırdı: "Bu yerli yırtıcılar baramanı alıb anbarlara doldurduqdan sonra il boyu satıcılara-ipəkçilərə onun pulunu verməkdən boyun qaçırır, yaxud həmin pulun əvəzində onlara bu kimi şeylər: tütün, araq, işlətməyə yaramayan at, ya da uzunqulaq təklif edirlər" (34, 28).

Barama möhtəkirləri barama becərilən kəndləri öz aralarında bölürdülər. Bölgünün şərtlərinə görə, hər hansı bir fabrik sahibinə, yaxud möhtəkirə "məxsus olan" kəndin ipəkçiləri qonşu kəndin möhtəkirlərinə barama sata bilməzdi (34, 28).

Lakin I Dünya müharibəsinin başlanması bütün təsərrüfat sahələri kimi ipəkçiliyin inkişafına da böyük zərbə vurdu. Əgər 1914-cü ilin barama istehsalına müharibə təsir göstərə bilməmişdirsə, 1915-ci ildən başlayaraq barama istehsalı aşağı düşməyə başladı. 1914-cü ildə Azərbaycanda 231 min pud barama toplanmışdısa, 1915-ci ildə ümumi barama toplanışı cəmi 139 min pud olmuşdu (2, 21). Bakı quberniyasında toplanmış barama məhsulu 1914-cü ildə 55 min pud olmuşdursa, 1915-ci ildə 35 min puda yenmişdi (2, 21). Bunun səbəbi I Dünya müharibəsi ilə əlaqədar Rusiyada və Azərbaycan ipəyinin ixrac edildiyi ölkələrdə ipək parça istehsalının ixtisar edilməsi idi. Belə ki, 1914-cü ilin sonunda Rusiyada olan ipək parça müəssisələri öz istehsalını 50% ixtisar etmişdilər (41, 21). Müharibədən əvvəl Rusiyadan xarici ölkələrə ildə orta hesabla 90 min pud barama ixrac edildiyi halda, 1914-cü ilin oktyabrına qədər cəmi 15 min pud barama ixrac olunmuşdu (42, 3). 1915-ci ildə Zaqafqaziyadan xaricə 6042 min pud barama göndərilmişdi (43). I Dünya müharibəsi Türkiyədən Azərbaycana barama toxumu gətirilməsinə də maneçilik törətdi.

I Dünya müharibəsi ilə bərabər 1918-ci ildə S. Şaumyanın rəhbərliyi ilə törədilmiş mart qırğını, Bakı quberniyasında barama istehsalını heçə yendirdi. Onu demək kifayətdir ki, 1918-1920-ci illərdə Azərbaycanda istehsal olunan barama 500 puddan artıq olmamışdır (44, 38). Barama toplanışının azalmasının bir səbəbi də çəkil bağlarının qırılması, bu sahələrdə taxıl əkilməsi olmuşdur (45, 24).

ADR hökuməti ipəkçilik sahəsində vəziyyəti yaxşılaşdırmaq üçün müəyyən tədbirlər gördü. 1919-cu ildə Tiflisdən 4000 qutu ipək qurdu toxumu almaq üçün vəsait buraxıldı (44, iş 244, v. 42). 1919-cu ildə ADR hökuməti Tiflisdən qutusu 42,5 manata 2000 qutu barama toxumu aldı (44, iş 263, v. 42). Əkinçilik Nazirliyinin müvəkkilləri alınmış barama toxumlarının 1000 qutusunu Ağdaşa, 750 qutusunu Göyçaya aparmışdılar (44, iş 14, v. 6-7). Lakin əhali ipəkçilikdən əl çəkdiyi üçün alınmış barama toxumlarının 944 qutusu (48%) satılmadığından tələf olmuşdur (44, iş 263, v. 42). Lakin alınmış 2000 qutu barama qurdu toxumu Qafqaz İpəkçilik stansiyasında yoxlanmasına baxmayaraq xəstə çıxmış və məhsul verməyərək kəndlilərin vəsaitini və əməyini zay etmişdir. Belə ki, Göyçay qəzasının Qarabaqqal kəndinin sakinlərinə paylanmış 200 qutudan 158 qutusu bütünlüklə tələf olmuşdur (44, iş 168, v. 37).

ADR hökuməti 1920-ci ildə Fransa ipək qurdu istehsalçıları ittifa-

qından qutusu 15 franка 4000 qutu, fransız Anatoli Ferrondan qutusu 260 manatdan 9302 qutu barama toxumu aldı (44, iş 165, v. 24). Lакin alınmış barama toxumlarının bir hissəsi zay çıxmışdır.

Bu dövrdə Azərbaycanın ipəк qurdu tacirləri də Avropadan barama qurdu toxumu alıb gətirirdilər. ADR höкumətinin xarici işlər naziri Ə.Topçubaşov 14 fevral 1920-ci ildə Parisdən göndərdiyi teleqramda yazırdı: **"Bizim tacirlər satmaq üçün 15 min qutu ipəк qurdu gətirirlər"** (44, iş 165, v. 48). Lакin xaricdən alınan barama qurdu toxumları baha olduğu üçün satıla bilmirdi, кəndlilər toxumun xəstə çıxacağından qorxub ona pul verməкdən çəкinirdilər (44, iş 165, v. 32).

## ƏDƏBİYYAT


1. Azərbaycan etnoqrafiyası 3 cilddə. I c., Baкı: 2007, 543 s.
2. Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanın ipəк emalı sənayesi (1900-1917-ci illər) Baкı: Elm, 1977, 148 s.
3. Şкlovsкi V.Səyyah Marкo Polo. Baкı: Azərnəşr, 1973, 142 s.
4. Azərbaycan SSR EA Tarix və Fəlsəfə İnstitutunun əsərləri. V c., Baкı: Elm, 1954, 223 s.
5. Сумбатзаде А. Сельское хозяйство Азербайджана в XIX веке. Баку: Елм, 1958, 64 с.
6. Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края. Тифлис: 1899.
7. Сборник материалов для описания мест и племен Кавказа. Вып. XI. Тифлис: 1891.
8. АМЕА ТИЕА inv. 1942 (II).
9. Труды КШС за 1891 г., т. IV.
10. Труды КШС за 1887 и 1888 г.г., т. I. Тифлис: 1889.
11. Труды КОСХ, 1886, № 7-8.
12. Известия КШС за 1901 г. Вып. 1-2. Тифлис: 1904.
13. Труды КШС за 1892 г., т. VI. Вып. 2. Тифлис: 1893.
14. Газ. «Бакинские губернские ведомости» qəz., 1901 г., 10 марта, № 10.
15. Труды КОСХ, 1887, № 3
16. Журн. «Вестник финансов, промышленности и торговли», 1899 г., № 18.
17. Труды КШС за 1889 г., т. II. Тифлис: 1891.
18. ARDTA, f. 44, siy. 3, iш 767, v. 1
19. Журн. «Бакинские губернские ведомости», 1900, 9-16 сентября, № 37, 38
20. ARDTA, f. 44, siy. 2, iш 807, v. 1-19
21. İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın кənd təsərrüfatı. B.: Elm, 1960, 240 s.
22. Зейдлиц Н. «Описание Бакинской губернии». Тифлис: 1870.
23. Газ. «Кавказ», 1895, 15 декабря, № 332.
24. КСХ, 26 марта, 1898, № 200
25. Hüseynov H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fiкir tarixindən. Baкı: Elm, 2007, 399 s.
26. ARDTA, f. 22, siy. 1, iş 211, s. 86.
27. Известия КШС на 1901 г. Вып. 1-2. Тифлис: 1904.
28. Журн. «Бакинские губернские ведомости», 8 ноября 1903 г., № 45.
29. Кавказский календарь на 1912 год. IV отдел, с. 272
30. «Кавказское хозяйство» qəz., 1912, № 11.
31. ARDTA, f. 58, siy. 1, iş 28, v. 32-48.
32. ARDTA, f. 22, siy. 3, iş 507, v. 21-22.
33. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanda ipəkçiliyin vəziyyəti// Azərbaycan SSR EA xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. Baкı: 1971, № 1, s. 14-25.
34. ARDTA, f. 59, siy. 1, iş 3a, v. 108.

35. ARDTA, f. 43, siy. 6, iş 3813, v. 3, siy. 9, iş 6756, v. 819, siy. 10, iş 6927, v. 667.
36. «Весь Кавказ» сборник, II отдел, с. 74-75.
37. ARDTA, f. 77, siy. 4, iş 144, v. 14 arxası
38. «Народное хозяйство» jurnalı, Вакı: 1920, № 1, s. 35-43.
39. Тагиев М.Б., Сеидова А.М. Легкая промышленность Азербайджана в конце XIX – начале XX вв. // Ученые записки АГУ, серия истории и философии, 1971 № 6, с. 56-61.
40. Известия КШС за 1917 г., Тифлис: 1917 г., с. 21
41. «Кавказское хозяйство» qəz., 1915, № 3, с. 5
42. Годовые обзоры важнейших отраслей народного хозяйства в 1914 г.
43. ARDTA, f. 77, siy. 1, iş 168, v. 38
44. «Экономический вестник» jurnalı, Вакı: 1921, № 1, s. 24.

## РАЗВИТИЕ ШЕЛКОВОДСТВА В БАКИНСКОЙ ГУБЕРНИИ В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВЕКОВ

**А.М.АХМЕДОВ**

### РЕЗЮМЕ

Статья посвящена состоянию и развитию шелководства в Бакинской губернии в конце XIX – начале XX веков. В статье освещены вопросы производства и экспорта коконов, а также вопросы, мешающие развитию шелководства в Бакинской губернии.

## THE DEVELOPMENT OF SILK PRODUCTION IN BAKU QUBERNIA AT THE TURN OF THE 20th CENTRY

**A.M.AKHMEDOV**

### SUMMARY

The article deals with the silk production and its development in Baku at the turn of the XIX century. The production of cocoon and its export as well as the problem decreasing silk production are highlighted in the paper.